# 26 iyun Azərbaycan Respublikası Silahlı Qüvvələri günüdür!

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

N24-25 (1072/73) 20 iyun - 3 iyul 2019-cu il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətі razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Prezident İlham Əliyevin əhalinin rifahının yüksəldilməsi istiqamətində inqilabi addımları davam edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əhalinin rifahının yüksəldilməsi məqsədilə növbəti sosial paketi təsdiq etdi. Bu, həyata keçirilən dövlət siyasətinin davamı, silsilə tədbirlərin növbəti mərhələsidir.

Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının böyük dərəcədə artırılması barədə iyunun 18-də imzaladığı sərəncamlar dövlətimizin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə göstərir.

Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə Prezident tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı birbaşa olaraq 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu ilin sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da orta hesabla 40 faiz artmaqla 265 manatdan 367 manata çatmasına imkan verir.

İyunun 18-də imzalanan 17 sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir.

Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu sərəncamlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

İmzalanmış sərəncamlar:

**- minimum aylıq əməkhaqqının 180 manatdan 250 manata çatdırılmasını;**

**- dövlət qulluqçularının aylıq vəzifə maaşlarının 50 faiz artırılmasını;**

**-hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin əməkhaqlarının 40 faiz artırılmasını;**

**- dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin vahid aylıq vəzifə maaşlarının orta hesabla 20 faiz artırılmasını;**

**- dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan şəxslərin aylıq vəzifə maaşlarının orta hesabla 40 faiz artırılmasını nəzərdə tutur.**

**Cari ilin əvvəlindən etibarən qəbul edilmiş bu kimi qərarlar qlobal iqtisadiyyatda baş verən mənfi meyillərin ölkə əhalisinin sosial təminatına təsirini minimallaşdırmağa imkan vermişdisə, hazırkı sərəncamlar isə əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq.**

**Əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi fəallığın daha da yüksəlməsinə öz töhfəsini verəcək.**

**İqtisadi sahədə əldə edilmiş böyük uğurların sosial sferaya transformasiyası dövlətimizin başçısının bəyan etdiyi sosial-iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırıb. Büdcə gəlirlərinin daha artıq məbləğdə təmin edilməsi sosial sahədə islahatların dərinləşməsi üçün münbit şərait yaradıb.**

**Dövlət büdcəsində formalaşan əlavə gəlirlərin bilavasitə vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəldilməsi ölkənin kompleks iqtisadi inkişafı fonunda dövlət–vətəndaş etimad mühitini dərinləşdirməklə, aparılan sosial siyasətin alternativsiz olduğunu bir daha sübut edir.**

Göründüyü kimi, dövlətimizin başçısının yeni sosial paketi əhalinin rifahına ciddi dəstək tədbirlərinin uğurla davam etməsinə, nəticə etibarilə, əhalinin rifah halının yüksəldilməsi sahəsində ardıcıl irəliləyişlərin reallaşdırılmasına imkan verir. Bir sözlə, Prezident İlham Əliyev "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisini bir daha təsdiq etdi.

Xatırladaq ki, 2019-cu ilin əvvəlində Prezident İlham Əliyevin müvafiq sosial paket çərçivəsində imzaladığı qanunvericilik aktları 3 milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu və bu məqsədlər üçün 1,5 milyard manat vəsait ayrıldı.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri təhlükəsizlik məsələləri üzrə beynəlxalq görüşdə iştirak edib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti iyunun 18-də təhlükəsizlik məsələlərinə nəzarət edən ali nümayəndələrin 10-cu beynəlxalq görüşündə iştirak edib.

Rusiya Federasiyasının Ufa şəhərində keçirilən, 119 ölkənin təmsilçilərinin iştirak etdikləri görüşdə hibrid təhlükələrin artması şəraitində milli təhlükəsizliyin və dayanıqlı iqtisadi-sosial inkişafın təmin edilməsi məsələsi müzakirə olunub.

Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev görüşdə məruzə ilə çıxış edib, hibrid təhlükələrin proqnozlaşdırılması, qabaqlanması və qarşısının alınması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşün gündəliyinə, həmçinin fövqəladə humanitar cavab tədbirləri sahəsində əməkdaşlıq, beynəlxalq informasiya təhlükəsizliyi sistemi və terrorçuluq ideologiyasının yayılmasına qarşı mübarizə sahəsində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi daxildir.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev, Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zas, Moldova Respublikası Ali Təhlükəsizlik Şurasının katibi Artur Qumenyuk və Qırğız Respublikası Təhlükəsizlik Şurasının katibi Dəmir Saqınbayev ilə ikitərəfli görüşlər keçirib. Görüşlərdə Təhlükəsizlik şuraları xətti üzrə əməkdaşlıq məsələləri müzakirə edilib.

PASHA Bank

26 iyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü münasibətilə xalqımızı təbrik edir!

# Baş nazir Zirvə toplantısında



İyunun 15-də Tacikistanın paytaxtı Düşənbədə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin beşinci Zirvə toplantısı keçirilib.
Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Zirvə toplantısında iştirak edib.
Prezident Emoməli Rəhmon Zirvə toplantısını açaraq nümayəndə heyətlərinin rəhbərlərini salamladı. Dövlət başçısı terrorizm, ekstremizm kimi bəlaların regionda təhlükəsizliyə əsas təhdid olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu təhdidlər region ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsini zəruri edir. Prezident regionda ümumi maraqların təmini naminə nəqliyyat infrastrukturu layihələrinin genişləndirilməsinin önəmini bildirmişdir.
Bundan əvvəl quruma sədrlik edən Çin Xalq Respublikasının Sədri Si Cinpin çıxış edərək, Asiya regionunda sülhün və təhlükəsizliyin təmin edilməsinin ümumi məqsəd olduğunu bildirib.
Zirvə toplantısında çıxış edən Baş Nazir Novruz Məmmədov Tacikistan Respublikasının quruma sədrliyinin Asiya regionunda sülh, sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə etmişdir.
Baş Nazir Novruz Məmmədov qeyd etmişdir ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə Asiya qitəsində sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsi üçün dialoq və əməkdaşlıq platformasıdır. "Şübhəsizdir ki, silahlı münaqişələr, terrorizm, irqçilik, radikalizm, dözümsüzlük və kiber təhlükələr beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi risklər doğurur. Beynəlxalq və regional təhlükəsizlik bir-biri ilə sıx bağlıdır. Dünyanın bir bölgəsində sülh və sabitliyin pozulması digər regionlarda da təhlükəsizlik üçün təhdidlər yaradır", - deyə Novruz Məmmədov bildirmişdir.
O, demişdir ki, Azərbaycan bu gün hərtərəfli və dinamik inkişaf yolu ilə irəliləyən müasir dövlətdir. Ölkəmizin iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələrin geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaratdığını vurğulayan Baş Nazir demişdir: "Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm də beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir".
Azərbaycanın 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik edəcəyini xatırladan Baş Nazir bildirmişdir ki, ölkəmiz Qoşulmama Hərəkatının yaratdığı çoxtərəfli platformadan istifadə edərək beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, ölkələr arasında dialoq və əməkdaşlığın inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək.
Sonda Zirvə toplantısının Bəyannaməsi qəbul edilmişdir.
Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov ilə Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun görüşü olub.

# Uşaq İncəsənət məktəbi yenilənir



İyunun 13-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Yasamal rayonunda Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbindəki şəraitlə tanış olub.
Mədəniyyət naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məktəb haqqında məlumat verib.
Bildirilib ki, bu təhsil müəssisəsi 1940-cı ildə 1 nömrəli uşaq musiqi məktəbi kimi fəaliyyətə başlayıb. Məktəbə 1985-ci ildə Vaqif Mustafazadənin adı verilib. 1988-ci ildən isə 2 nömrəli uşaq incəsənət məktəbi kimi fəaliyyətini davam etdirib və burada əlavə şöbələr açılıb.
Qeyd edilib ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbini bir çox məşhurlar bitirib. Azərbaycanın Xalq artistləri Arif Məlikov, Aqşin Əlizadə, Oqtay Zülfüqarov, Oqtay Rəcəbov, Kamil Cəlilov, Ağaverdi Paşayev və Azərbaycanın mədəniyyətinə böyük töhfələr vermiş bir çox sənətkarlar bu məktəbdə təhsil alıblar.
Hazırda məktəbdə 385 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur.
Birinci vitse-prezident Mehriban Əliyeva məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasına dair göstəriş verib.

# Heydər Əliyev Fondu "Ümid yeri"nin sakinlərini sevindirdi



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva iyunun 13-də Bakının Xəzər rayonunun Binə qəsəbəsində "Ümid yeri" uşaq sığınacağının yeni inşa olunan binasının açılışında iştirak edib.
"Ümid yeri" uşaq sığınacağının köhnə binası müasir tələblərə cavab vermədiyindən Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub.
Birinci vitse-prezident Mehriban Əliyeva binada yaradılan şəraitlə tanış olub. Müəssisənin rəhbəri Nigar Mənsimova "Ümid yeri" uşaq sığınacağının fəaliyyəti barədə Mehriban Əliyevaya məlumat verib.
Qeyd edilmişdir ki, uşaq sığınacağı 1997-ci ildə təsis olunub. Burada 18 yaşınadək şəxslər məskunlaşır. Sığınacaqda qaldıqları müddətdə onlara hüquqi, mənəvi, sosial və tibbi yardımlar edilir, uşaqların cəmiyyətə adaptasiya olunmalarına və təhsil almalarına dəstək göstərilir.
Müəssisədə sığınacaq sakinlərinin zövqlərinin formalaşması, istedad və bacarıqlarının inkişafı məqsədilə müxtəlif sənət sahələri - xalçaçılıq, rəssamlıq, əl işləri üzrə emalatxanalar yaradılıb.
Uşaqların iştirakı ilə yaradılan "Keçə" rəsm əsəri Heydər Əliyev Fondunun prezidentinə hədiyyə edildi.
Sonra Birinci vitse-prezident Mehriban Əliyeva uşaq sığınacağının sakinləri ilə görüşərək onlarla söhbət etmişdir.
Heydər Əliyev Fondu uşaqlarla bağlı müxtəlif layihələr reallaşdırır. Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını, müxtəlif humanitar aksiyaları fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Fond paytaxtdakı uşaq müəssisələrinin sakinləri üçün yaradılan şəraitin daha da yaxşılaşdırılması məqsədilə mühüm layihələrə imza atır. Bu istiqamətdə görülən işlərdən biri də "Ümid yeri" uşaq sığınacağı üçün yeni binanın inşasıdır.

# Bu gün Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır



*Azərbaycan Silahlı Qüvvələrinin 101 yaşı tamam olur*

***Azərbaycan Silahlı Qüvvələri Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun daha güclü, mütəşəkkil varisidir. Azərbaycan Xalq Cümhuriyyəti silahlı qüvvələrinin təşkilinə Cümhuriyyətin elan edildiyi gündən başlanmışdı. Azərbaycan Ordusunun yaradılması ilə bağlı qərar yeni müstəqil hökumət tərəfindən qəbul edilmiş ən mühüm qərarlardan biri idi. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki ildən sonra respublika süqut etdi və Azərbaycan dövlət müstəqilliyini itirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə ölkənin müstəqilliyinə və milli mənafelərə xidmət edən ordu quruculuğu yarımçıq qaldı. 1920-ci il Aprel işğalından dərhal sonra Cümhuriyyət ordusunun hissələri ləğv edildi, müstəqillik dövründə milli ordu üçün yaradılmış maddi-texniki baza isə talan olundu.***

Azərbaycanın dövlət müstəqilliyi 1991-ci ildə bərpa edildi. Lakin müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçmişdir. Prezident İlham Əliyevin dediyi kimi: "1991-1993-cü illərdə Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı. Müstəqilliyimiz formal, şərti xarakter daşıyırdı. Azərbaycan müstəqil siyasət apara bilmirdi. Ölkə daxillində çəkişmələr, hakimiyyət uğrunda mübarizə vəziyyəti daha da ağırlaşdırırdı. İqtisadi tənəzzül, böhran hökm sürürdü. Belə bir ağır vəziyyətdə Azərbaycan xalqı həmişə olduğu kimi, müdriklik göstərdi, ulu öndər Heydər Əliyevə müraciət etdi, onu hakimiyyətə dəvət etdi. Ancaq bundan sonra, ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət sabitləşdi və Azərbaycan bu ağır vəziyyətdən çıxa bildi.
Müstəqilliyimizin ilk illərində nizami ordu yaradılmamışdı. Ayrı-ayrı silahlı birləşmələr Azərbaycanın ərazi bütövlüyünü qoruya bilməmişlər. Ona görə, Ulu Öndər tərəfindən qəbul edilmiş bir çox önəmli qərarlar arasında nizami ordunun yaradılması qərarı xüsusi yer tutur. Nizami ordunu yaratmaq üçün iqtisadi imkanlar olmalı idi. Məhz buna görə, o illərdə Azərbaycanda çox ciddi iqtisadi islahatlar aparılmışdır, xarici sərmayənin cəlb olunması təmin edilmişdir, Azərbaycan beynəlxalq təcriddən çıxa bilmişdir.
Ölkədə aparılan siyasi, iqtisadi islahatlar vəziyyəti sabitləşdirdi və Azərbaycan 1993-cü ildən sonra inkişaf və tərəqqi yolu ilə gedir. Bu siyasət bu gün də davam etdirilir. 1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tariximizdə qalmışdır. 2003-cü ildən başlayaraq bütün istiqamətlər üzrə işlər sürətlə gedir, o cümlədən ordu quruculuğu sahəsində. Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Müharibənin birinci mərhələsi başa çatıb. Bizim əsas vəzifəmiz ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdir.
Bunun üçün güclü ordu yaratmalı idik. Bu gün tam əminliklə deyə bilərəm ki, buna nail ola bilmişik. Bu gün Azərbaycan ordusu dünyanın güclü orduları sırasındadır. Ordu quruculuğu əsas vəzifəmizdir. Güclü ordunu yaratmaq üçün güclü iqtisadiyyatımız olmalıdır. Biz bu istiqamətdə çox fəal işləmişik. Son 15 il ərzində iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə olmamışdır. Bütün aparıcı beynəlxalq təşkilatların reytinqlərində Azərbaycan ən qabaqcıl yerlərdədir. İnkişafda olan ölkələrin arasında Azərbaycan inkişafına görə dünya miqyasında üçüncü yerdədir. Biz öz hesabımıza yaşayırıq, heç bir yerdən yardım almırıq. Buna ehtiyac da yoxdur. Öz zəhmətimizlə qazanılan vəsaiti ölkə qarşısında duran əsas məqsədlərin həllinə yönəldirik. Onların arasında ordu quruculuğu birinci yerdədir.
**2003-cü ildən bu günə qədər bizim hərbi xərclərimiz 15 dəfə artmışdır.** Hərbçilərin xidmət şəraiti yaxşılaşır. Son illər ərzində onlarla hərbi şəhərcik yaradılmışdır. Hərbçilərin xidmət şəraiti çox yaxşıdır. Hərbi hissələrimizin, hərbi şəhərciklərimizin 80 faizi son bir neçə il ərzində yenidən tikilib və ya əsaslı təmir edilib. Növbəti 2-3 il ərzində bizim bütün şəhərciklərimiz tam təmirli olacaq. Beləliklə, bu məsələ də öz həllini tapmış olacaq. Hərbçilərin mənzil-məişət məsələləri həll olunur. Qəbul edilmiş qərar əsasında 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən pulsuz mənzillər verilir.
**Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilmişdir.** O cümlədən, Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılmışdır. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz artıq hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Son illər ərzində alınan ən müasir texnika və silahlar bizim hərbi gücümüzü artırır. Ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir.
**Azərbaycan Ordusunun döyüş qabiliyyəti ən yüksək səviyyədədir və bunu yaxın tarix göstərir. 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı.** Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Naxçıvan əməliyyatı yüksək məharətlə, peşəkarlıqla həyata keçirilmişdir. Azərbaycan hərbçisi bir daha qəhrəmanlıq, rəşadət göstərmişdir. Biz strateji yüksəklikləri zəbt etdik. Biz indi strateji kommunikasiya yollarını nəzarət altında saxlayırıq. Naxçıvan əməliyyatı bir daha onu göstərdi ki, Azərbaycan Ordusu güclü ordudur. Azərbaycan getdikcə güclənəcək. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək".

## Müdafiə Nazirliyi: Ermənistanın işğal edilmiş ərazilərimizdə keçirdiyi təlimlər tam nəzarətimiz altındadır



Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistan silahlı qüvvələrinin iyunun 17-də başladığı "genişmiqyaslı" hərbi təlimlər ordumuzun ön xətt bölmələri tərəfindən xüsusi müşahidə vasitələri və cihazları ilə ciddi izlənilir və tam nəzarətdə saxlanılır.
Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib: "Dəfələrlə olduğu kimi, qarşı tərəf bu dəfə də cüzi sayda şəxsi heyət və texnikanı cəlb etməklə keçirdiyi məşğələni "genişmiqyaslı" təlim kimi təqdim etməyə çalışır. Düşmən tərəfinin təlimlərə guya 10 min şəxsi heyət və çoxlu sayda döyüş texnikası cəlb etməsi barədə yaydığı məlumatın tam əksinə, təqdim edilən videodan da görünür ki, ermənilər həmişə olduğu kimi yenə də özünəməxsus saxtakarlıq etməklə öz ictimaiyyətini aldadırlar".



# Nizamnamə kapitalında iştirak paylarının məhdudlaşdırılması proseduru müəyyənləşir




Azərbaycanda bank olmayan kredit təşkilatlarının (BOKT) nizamnamə kapitalında mühüm iştirak paylarının məhdudlaşdırılması proseduru müəyyənləşir. Bu, "Bank olmayan kredit təşkilatları haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.
Layihəyə əsasən, hər hansı şəxs BOKT-un nizamnamə kapitalında mühüm iştirak payını, o cümlədən nizamnamə kapitalındakı mövcud payını mühüm iştirak payına çatdıran əlavə payı, habelə mühüm iştirak payını artıraraq səsvermə hüququ olan iştirak paylarının və ya nizamnamə kapitalının 20 faizinə, 33 faizinə, 50 faizinə çatmasına və ya bu miqdarı keçməsinə, yaxud BOKT-un həmin şəxsin törəmə strukturuna çevrilməsinə gətirib çıxaran iştirak payını müəyyən olunmuş qaydada əldə edə biləcək.
BOKT kapitalında mühüm iştirak payı olan şəxsin başqa hüquqi şəxsin kapitalında mühüm iştirak payını əldə etməsi və ya artırması barədə xəbər tutduqdan sonra dərhal bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasına yazılı bildiriş göndərməlidir. O cümlədən BOKT kapitalında mühüm iştirak payı olan hüquqi şəxsin kapitalında hər hansı şəxsin mühüm iştirak payı əldə etməsi və ya artırması barədə xəbər tutduqdan sonra dərhal bu barədə Palataya yazılı bildiriş göndərməlidir. Mühüm iştirak payının alınması üçün BOKT-un səlahiyyətli idarəetmə orqanı müraciəti və qərarı ilə birlikdə müvafiq sənədləri Maliyyə Bazarlarına Nəzarət Palatasına təqdim etməlidir.
Layihədə qeyd edilir ki, BOKT-un kapitalında mühüm iştirak payına malik olan hər hansı bir şəxs ona məxsus səs hüquqlarını və ya nizamnamə kapitalındakı payını 20 faizdən, 33 faizdən və ya 50 faizdən aşağı səviyyəyə endirməzdən əvvəl bu barədə Maliyyə Bazarlarına Nəzarət Palatasına yazılı məlumat verməlidir.
Qanun layihəsi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən parlamentin növbədənkənar sessiyasının iclasına tövsiyə edilib.

# Regionlardan vergi daxilolmaları 8,6 faiz artıb

2018-ci ilin müvafiq dövrünə nisbətən cari ilin yanvar-may aylarında vergi daxilolmalarında 8,3 faiz artım olub. Regionlardan vergi daxilolmaları isə 8,6 faiz artıb.
Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qeyri-dövlət sektoru üzrə vergi daxilolmalarında 10 faiz, qeyri-neft-qaz sektoru üzrə 16,1 faiz, qeyri-neft qaz sektorunun özəl bölməsində 17,6 faiz artım olub.
Ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin beş ayında məcburi dövlət sosial sığorta yığımları 18,2 faiz, işsizlikdən sığorta məbləğləri isə 72,8 faiz artıb.

# Azərbaycan iqtisadiyyatında artım sürətlənib



2019-cu ilin yanvar-may aylarında ölkədə 30 milyard 608,7 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir. Bu barədə Dövlət Statistika Komitəsindən xəbər verilir.
Müqayisə üçün qeyd edək ki, 2019-cu ilin yanvar-aprel aylarında ölkədə 23 milyard 813,4 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz çox ümumi daxili məhsul istehsal edilmişdir.
ÜDM istehsalının 46,0 faizi sənayenin, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrinin, 5,9 faizi tikintinin, 3,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 14,4 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,3 faizini təşkil etmişdir.
Əhalinin hər nəfərinə düşən ÜDM 3099,0 manata bərabər olmuşdur.

# Müştərilər banka gəlmədən bir sıra xidmətlərdən faydalana biləcəklər




"AtaBank" ASC müştərilərinə daha yüksək və operativ xidmət göstərmək məqsədi ilə bir sıra yeni xidmət və əməliyyatların icrasını bankın Qaynar xəttinə verib. Beləliklə, həm fiziki, həm hüquqi şəxslər bankın 136 qısa nömrəsinə zəng edərək və lazımi identifikasiyadan keçərək şəxsi hesabları haqda bütün məlumatı ala və müxtəlif xidmətlərdən yararlana biləcəklər.
Bundan əlavə, bir müddət öncə bankın WhatsApp və Telegram əlavələrinə bağlı 050 9999136 telefon nömrəsi də istifadəyə verilmişdir. Artıq bu mobil əlavələrdən müraciət edən müştərilər yalnız bankın məhsulları və xidmətləri haqda yox, həmçinin hesabları haqda məlumatı və bir sıra əməliyyatları onlayn şəkildə apara biləcəklər.
Biznesin İnkişafı Departamentinin direktoru Oruc İbrahimov bildirdi ki, AtaBank-ın müştəriləri bank kartının bloklaşdırılması/blokdan çıxarılması, hesab haqda məlumat, kredit borcu haqda məlumat, AtaNet istifadəçi şifrələrinin və uğursuz PİN cəhdlərinin sıfırlanması və digər xidmətlərdən artıq banka gəlmədən faydalana biləcəklər və gələcəkdə müştərilərin rahatlığı üçün yeni innovativ imkanlar yaradılacaq.
Bankın xidmət və məhsulları haqqında daha ətraflı öyrənmək istəyən şəxslər 136 qaynar xəttinə zəng vura və ya bankın internet səhifəsini ziyarət edə bilərlər - https://atabank.com/az/.
25 ildən artıq fəaliyyət göstərən "AtaBank" ASC müasir və universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# Qeyri-neft məhsulları ixracındakı vəziyyət açıqlandı




2019-cu ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 161 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 97 ölkəyə məhsul ixrac olunmuş, 151 ölkədən idxal olunmuşdur.
Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2019-cu ilin yanvar-aprel aylarında ölkənin xarici ticarət dövriyyəsi 10 milyard 965,2 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 6 milyard 415,8 milyon dollar, idxalın dəyəri 4 milyard 549,4 milyon dollar təşkil etmiş, nəticədə 1 milyard 866,4 milyon dollarlıq müsbət ticarət saldosu yaranmışdır. 2018-ci ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 17,7 faiz, o cümlədən idxal 50,3 faiz, ixrac 1,9 faiz artmışdır. Real ifadədə isə dövriyyə 7,3 faiz, o cümlədən idxal 19,5 faiz, ixrac 1,4 faiz artmışdır.
Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən ixracın 29,8 faizini İtaliyaya, 10,7 faizini Türkiyəyə, 7,8 faizini Çinə, 6,3 faizini İsrailə, 5,3 faizini Almaniyaya, 5,1 faizini İspaniyaya, 4,7 faizini Hindistana, 3,6 faizini Fransaya, 3,3 faizini Çexiyaya, 3,1 faizini Gürcüstana, 3,0 faizini Portuqaliyaya, 2,5 faizini Rusiyaya, 14,8 faizini isə digər ölkələrə göndərilmiş məhsulların dəyəri təşkil etmişdir.
Ölkəmizə idxal olunmuş məhsulların ümumi dəyərinin 16,2 faizi İsveçrə, 14,5 faizi Rusiya, 9,7 faizi Türkiyə, 8,3 faizi Çin, 5,3 faizi İran, 4,6 faizi Almaniya, 4,2 faizi ABŞ, 3,1 faizi Ukrayna, hər biri 2,8 faiz olmaqla İtaliya və Kanada, 2,7 faizi Avstraliya, 2,3 faizi Qazaxıstan, 23,5 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşmüşdür.
2019-cu ilin yanvar-aprel aylarında ölkədən 582,7 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir.
Qeyri-neft məhsulları üzrə ixracın dəyərində Rusiyaya (28,3 faiz), Türkiyəyə (25,4 faiz), Gürcüstana (10,7 faiz), İsveçrəyə (7,7 faiz), İtaliyaya (3,8 faiz), Yunanıstana (2,6 faiz), Ukraynaya (2,3 faiz), Çinə (2,1 faiz), İrana (2,0 faiz) və Almaniyaya (1,7 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.
2019-cu ilin yanvar-aprel aylarında 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə meyvə ixracı 32,7 faiz, təzə tərəvəz – 30,6 faiz, tütün – 2,0 dəfə, meyvə və tərəvəz şirələri – 38,6 faiz, meyvə və tərəvəz konservləri – 10,0 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 4,0 faiz, pambıq lifi – 3,2 dəfə, pambıq ipliyi – 44,8 faiz, qara metallardan yarımfabrikatlar – 5,6 dəfə, bentonit gili – 31,0 faiz artmış, şəkər ixracı isə 18,4 faiz, çay – 12,1 faiz, kartof – 24,3 faiz, bitki yağları – 2,4 faiz, təbii üzüm şərabları və üzüm suslosu – 19,1 faiz, polietilen – 5,5 faiz, emal olunmamış alüminium – 7,5 faiz, qara metallardan borular – 77,9 faiz azalmışdır.

# Azərbaycanda ilk toxum brendi yaradılıb

Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Dövlət Toxum Fondu ilk toxum mağazasını fermerlərə təqdim edib.
Nazirlikdən verilən məlumata görə, mağaza "ToxumArt" əmtəə nişanı altında fəaliyyət göstərir.
Məqsəd ölkə fermerlərini mövcud bazar qiymətlərindən daha aşağı qiymətlə, sertifikatlı, müxtəlif çeşidli, yüksək keyfiyyətli və məhsuldar toxumla təmin etməkdir.
İlk toxum mağazası Xaçmaz rayonunda açılıb. Mağazanın üstünlüklərindən biri odur ki, yerləşdiyi məkan Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Toxum Fonduna məxsus toxum emalı zavodunun yaxınlığındadır. Beləliklə, emal olunmuş toxumların satış imkanları birbaşa tənzimlənəcək.
"Dövlət - Özəl Tərəfdaşlıq" prinsipi əsasında fəaliyyətə əsaslanaraq toxumçu fermerlərin yetişdirdikləri toxumlar zavodda emal edildikdən sonra mağazada satışa çıxarılacaq.
Eyni zamanda, burada Azərbaycanda və xaricdə istehsal edilmiş toxumlar və aqrotexniki qulluq vasitələri də təklif edilir.
Bununla yanaşı, fermerlərə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanmış təlimatlar və aqrotexniki qulluğa dair məlumatlar da təqdim ediləcək.
Taxıl toxumundan başqa, Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun istehsal etdiyi tərəvəz toxumları da bu mağazada fermerlərə təqdim olunur.
Dövlət Toxum Fondunun sədri Emin Əliyev bildirib ki, mağaza istehsalçı və istehlakçıların işini asanlaşdıracaq: "İlk mağazamız Xaçmazda işə başlasa da, yaxın günlərdə Şəkidə də "ToxumArt" mağazası açılacaq. Məqsəd qısa zaman ərzində keyfiyyətli toxumlara əlçatanlığın təmin edilməsidir.
Ümumiyyətlə, mağazalar toxum emalı zavodlarımızın bir istiqaməti olacaq. Özlərinin sertifikatlı toxumlarına alıcı tapmaqda çətinlik çəkən toxumçular onları bizə sata biləcəklər. Bunun üçün yeganə şərt toxumların yüksək keyfiyyətə malik olmasıdır".

# Ненефтяной экспорт Азербайджана за 5 месяцев вырос на 18%



Рост ненефтяного экспорта Азербайджана в январе-мае 2019 года по сравнению с аналогичным периодом прошлого года составил 17,8%, заявил замминистра экономики Руфат Мамедов.
«По итогам 5 месяцев 2019 года рост ненефтяного экспорта Азербайджана составил 17,8%. В 2017 году этот показатель вырос на 24,4%, в 2018 году - 10%», - сказал Мамедов на пресс-конференции в среду.
По его словам, в отчетном периоде также наблюдается рост промышленного производства ненефтяной продукции.

# Добыча товарного газа увеличилась на 40 процентов



За пять месяцев в Азербайджане добыча товарного газа выросла на 40,4 процента.
Общий объем производства промышленными предприятиями и частными предпринимателями, работающими в этой сфере, в январе-мае этого года составил 19,6 млрд. манатов или на 2,2 процента больше промышленной продукции по сравнению с соответствующим периодом прошлого года.
69,9 процента промышленной продукции было произведено в горнодобывающем секторе, 4,3 процента - в секторе производства и распределения электроэнергии, природного газа и пара, 0,7 процента - в секторе водоснабжения, очистки и переработки отходов.
В горнодобывающем секторе производство нефти сократилось на 2,9 процента, а добыча природного газа увеличилась на 40,4 процента.
Объем производства в секторе производства и распределения электроэнергии, природного газа и пара увеличилась на 0,4 процента, а в секторе водоснабжения, очистки и переработки отходов – на 8 процентов.

# Экспортеры за 5 месяцев получили из госбюджета поощрения на 5 млн. манатов




Экспортерам ненефтяной продукции в Азербайджане в рамках механизма поощрения экспорта в 2017-2019гг выплачено из госбюджета 12,939 млн манатов, сообщил исполняющий обязанности главы Azpromo Юсиф Абдуллаев.
"В рамках механизма поощрения экспорта до сих пор экспортерам возвращено средств на сумму около 13 млн манатов. В том числе 4, 947 млн манатов в 2018 году, за 5 месяцев 2019 года - 5,042 млн манатов", - сказал Абдуллаев на пресс-конференции в среду.
Как ранее сообщалось, в октябре 2016 года кабинет министров утвердил порядок выплаты экспортного поощрения лицам, занимающимся экспортом ненефтяной продукции. Согласно постановлению правительства, базовая сумма экспортного поощрения составляет 3% от таможенной стоимости, указанной в экспортной декларации фактически экспортированного товара.
Для получения поощрения предприниматели должны обратиться в министерство экономики, представив необходимые документы.
К товарам применяются следующие коэффициенты: мед - 1,5, сухофрукты - 1,5, хурма - 1, гранат - 1, мучные кондитерские изделия - 1,5, консервированные овощи и фрукты - от 1,5 до 2 в зависимости от использования уксуса и сахара, джемы и варенья, мармелады, фруктовое и ореховое пюре - 2, фруктовые и овощные соки - 2, соусы и пряности - 2, природная или искусственная минеральная вода - 1,5, безалкогольные напитки - 1,5, вина и другие алкогольные напитки - 2, Нафталановая мазь - 2, одежда, обувь и другие изделия из натуральной кожи - 2, одежда и другие изделия из хлопка - 2, шелк - 1,5, ковры – 2, яйца (птицеводство) - 1,5, очищенные лестные орехи - 1, оливковое масло и его фракции - 1,5, фруктовые вина, включая гранатовое вино, за исключением виноградных вин - 2.
В госбюджете Азербайджана на 2019 год предусмотрены средства в размере 15 млн манатов на выплату поощрения экспортерам ненефтяной продукции.

# Резиденты промпарков произвели продукции на 1,4 млрд манатов



Резиденты промышленных парков в Азербайджане за период своей деятельности произвели продукции на сумму 1,4 млрд манатов, сообщил заместитель министра экономики Азербайджана Руфат Мамедов.
«Часть произведенной продукции была экспортирована. В частности, экспортировано продукции на 267 млн манатов», - сказал Мамедов в среду на пресс-конференции.
В настоящее время в Азербайджане действуют 5 промышленных парка – Сумгайытский химико-промышленный, Гарадагский, Мингечевирский, Пираллахинский и Балаханинский.
В этих парках зарегистрировано 40 резидентов, 23 из которых уже приступили к производству. До конца 2019 года производство запустят ещё 8 резидентов.
В 2018 году в промышленные парки резидентами было инвестировано $451 млн, общий объем вложений до сих пор в проекты оценивается $3,3 млрд. В промышленных парках уже создано около 9 тыс. постоянных рабочих мест. На следующем этапе планируется инвестировать до $400 млн и создать еще свыше 1,6 тыс. рабочих мест.

# SOCAR доведет к 2020 г число АЗС в Азербайджане до 31




ЗАО "SOCAR Petroleum" ("дочка" SOCAR) планирует до конца 2019 года увеличить число автозаправочных станций (АЗС) под брендом «SOCAR» в Азербайджане до 31, отмечает SOCAR Petroleum на официальной странице в соцсети Facebook.
"В настоящее время под брендом «SOCAR» в Азербайджане функционируют 29 АЗС. До конца текущего года мы планируем ввести в эксплуатацию еще две АЗС", - отмечает компания.
Одна из АЗС будет открыта в Баку, вторая – в Шеки.
SOCAR Petroleum учреждена в январе 2008 года и занимается розничной торговлей нефтепродуктов, расширяя сеть АЗС под брендом «SOCAR». Первые АЗС в Азербайджане компания открыла в мае 2010 года.
На АЗС компании реализуется 6 видов топлива: бензин АИ-95 Premium, отвечающий экологическим стандартам Euro-4, АИ -92 (Euro-2), АИ -98 Super (Euro-5), а также сжиженный газ (LPG) и дизельное топливо.

# Таможня будет внедрять технологию блокчейн с помощью IBM



Государственный таможенный комитет и корпорация IBM подпишут 13 июня меморандум о начале использования блокчейн-технологий в таможенных процедурах.
Как сообщает Trend, об этом сказал председатель Государственного комитета таможни Сафар Мехтиев на пресс-конференции, которая прошла в рамках начавшей сегодня в Баку выставке-конференции ВТО по применению ИТК.
Мехтиев сказал, что уже в этом году планируется начать внедрять эти технологии во всех видах грузоперевозок. Применение данных технологий позволит отправлять информацию о контейнерных перевозках в базу данных. «В режиме онлайн, без вмешательства извне, можно будет получать необходимую информацию из базы данных. Это будет полезно как предпринимателям, так и таможенным органам, так как повысит качество предоставляемых таможенных услуг», - подчеркнул Мехтиев.
По его словам, Азербайджан также работает над подготовкой соглашений о двустороннем сотрудничестве по применению блокчейн технологий с различными странами. «В этом направлении мы реализуем проект с Украиной при поддержке Грузии и Молдовы», - отметил председатель ГТК.










## Rumıniya kənd təsərrüfatı ilə məşğul olan əhalinin sayına görə Avropa İttifaqında birinci yerdədir

Avropanın Statistika Agentliyinin məlumatına əsasən, 2018-ci ildə Rumıniya əhalisinin 23 faizi kənd təsərrüfatı ilə məşğul olub. Bu isə Avropa İttifaqında (Aİ) birinci göstəricidir.



Aİ-də kənd təsərrüfatı ilə məşğul olan əhalinin sayı ümumilikdə 4 faiz təşkil edir. İttifaq ölkələri daxilində Rumıniyadan sonra ən çox əhali Bolqarıstanda (18 faiz), Yunanıstanda (11 faiz) və Polşada (10 faiz) kənd təsərrüfatı ilə məşğuldur və bu sahədə fəaliyyət göstərir.

## Bakıda sərnişindaşımada fəaliyyət göstərmək üçün 300 yeni avtobus gətiriləcək

Bu barədə Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat xidmətinin rəhbəri Mais Ağayev məlumat verib.

Onun sözlərinə görə, qurumun texniki heyəti bu həftə Türkiyəyə yola düşəcək: "Məqsəd "BMC Otomotiv Sanayi ve Ticaret" AŞ şirkətində Azərbaycan üçün istehsal olunan 300 avtobusa baxış keçirməkdir. Bakıya gətirilən həmin avtobuslar əsasən daha çox şikayət olunan, problemlər yaşanan xətlərdəki avtobusları əvəz edəcək. Müasir standartlara



cavab verən, kondisionerli avtobuslar, eyni zamanda, Bakıətrafı qəsəbələrə işləyən marşrut xətlərinə də buraxılacaq. Yeni avtobusların uzunluğu 12 və 18 metrdir".

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500